BMT-nin
Təhsil, Elm və
Mədəniyyət Təşkilatı

UNESCO üzrə
Azərbaycan Respublikasının
Milli Komissiyası

**Azərbaycan Respublikasının
Prezidenti yanında
ELMİN İNKİŞAFI FONDU**

**YUNESKO üzrə Azərbaycan
Respublikasının
Milli Komissiyası**

---

Bakı şəhəri 7 noyabr 2013-cü il

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının beynəlxalq xarakterli 2-ci "Şuşa Qrantı" birgə müsabiqəsinin nəticələri haqqında

## E L A N

Qarabağla bağlı ölkədə aparılan elmi tədqiqatları stimullaşdırmaq, regional və beynəlxalq səviyyədə araşdırmaları təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) 2012-ci il 8 may tarixində **"Şuşa Qrantı"**nı təsis etmişdir. 1-ci "Şuşa Qrantı" müsabiqəsi 2012-ci ildə elan edilərək keçirilmiş və qalib layihələr müəyyənləşdirilmişdir. 1-ci müsabiqənin nəticələri üzrə yerinə yetirilən 4 layihədən 2-si beynəlxalq xarakterli olmaqla Almaniya və Ukraynalı alimlərlə birlikdə uğurla yerinə yetirilir.

**Elmin İnkişafı Fondu** və **YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası**, bütövlükdə Qarabağın tarixinin, bu diyarın qədim və rəngarəng qeyri-maddi və maddi-mədəni irsinin, memarlığının, arxeologiyasının, iqtisadiyyatının, fauna və florasının, təbii sərvətlərinin, mədəniyyət tarixinin, etnoqrafiyasının, ədəbiyyatşünaslıq, dilçilik, sənətşünaslıq, incəsənət sahələrinin, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, Xocalı soyqırımının tədqiqi və bu barədə həqiqətlərin dünya elmi ictimaiyyətinə çatdırılması, Dağlıq Qarabağ münaqişəsinin yaratdığı problemlərlə bağlı mədəni, ekoloji, tibbi, bioloji və aqrar məsələlərin, qaçqın və məcburi köçkünlərin hüquqlarının qorunmasının və s. kompleks şəkildə elmi əsaslarla dərindən tədqiq olunmasının dəstəklənməsi məqsədi ilə təbiət, dəqiq, texniki, humanitar və ictimai elm sahələrində fundamental-tətbiqi xarakterli elmi-tədqiqat proqram və layihələri üzrə 2013-cü ildə təşkil edilərək keçirilmiş 2-ci "Şuşa Qrantı" birgə müsabiqəsinin (EİF/MQM-2-Shusha-

2013-3(9)) nəticələrini

ELAN EDİR:

Elmin İnkişafı Fondu və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası 2013-cü ildə 2-ci "Şuşa Qrantı" birgə müsabiqəsinin keçirilməsi haqqında qərarını 2013-cü il 10 may tarixində elan etmiş və qrant layihələrinin qəbulu üçün müddəti 2013-cü il 13 may – 28 iyun tarixlərini müəyyənləşdirmişdir. Bu müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası qrant iddiaçılarına kömək məqsədilə 5 məsləhət seminarı təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.

Yuxarıda göstərilən müddət ərzində müsabiqəyə 15 layihə daxil olmuş və müsabiqənin keçirilməsi qaydalarına uyğun olaraq layihələrin ideyalarının obyektiv formada orijinal ifadəsi (elektron və kağız daşıyıcılarda) və layihələrin əqli nəticələrinin müəlliflik hüququ qorunmaq məqsədilə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində müvafiq qeydiyyatdan keçirilmişdir. 2013-cü il 1 iyul – 30 sentyabr tarixlərini əhatə edən müddətdə bu layihələrin texniki və elmi ekspertizası işi təşkil olunmuşdur. Müsabiqə qaydaları və tələblərinə cavab verməyən 1 layihə texniki ekspertiza mərhələsindən keçməmiş, 14 layihə isə elmi ekspertiza mərhələsinə buraxılmışdır. Ekspertiza işinə Elmin İnkişafı Fondunun daimi ekspertləri və müstəqil elmi ekspertlər, həmçinin xarici ekspertlər də cəlb olunmuşlar.

Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil elmi ekspertlər təqdim olunmuş layihələrin cari müsabiqənin elmi prioritetlərinə uyğunluq dərəcəsini müəyyənləşdirmiş, layihələrin elmi səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını, gözlənilən elmi nəticələrini, mümkün tətbiq ehtimalını ekspertiza qaydalarına uyğun olaraq xüsusi sistem üzrə qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün rəylər və arayışlar hazırlamışdır.

Elmin İnkişafı Fondunun icraçı direksiyasının, daimi və müstəqil elmi ekspertlərin hər bir layihə üzrə hazırladığı rəylər və ümumiləşdirilmiş arayışların daxil olduğu yekun sənədlər toplusuna Elmin İnkişafı Fondunun Himayədarlar Şurasında baxılmış, ekspertiza qaydalarına uyğun olaraq layihələrin yekun toplanmış ballara görə sıralanmış siyahısı və maliyyələşdirilmə həcmi barədə təkliflər müzakirə olunmuşdur.

2013-cü ildə elan olunaraq keçirilmiş 2-ci "Şuşa Qrantı" birgə müsabiqəsi çərçivəsində 10 qalib layihə müəyyənləşdirilmişdir. Elmin İnkişafı Fondunun qərarının verilməsi üçün dəstəklənən layihələrin siyahısı (əlavə olunur) və hər qalib layihə üzrə maliyyələşdirilmə həcmi Fondun Himayədarlar Şurası ilə razılaşdırılmaqla Elmin İnkişafı Fondunun müvafiq qərarı ilə təsdiq olunmuşdur. 2-ci "Şuşa Qrantı" birgə müsabiqəsi üzrə qalib layihələrin ümumi maliyyələşdirilmə həcmi 300000 manat olmuşdur.

Bu elan verildikdən sonra müəyyənləşdirilmiş müddət ərzində Elmin İnkişafı Fondu ilə qalib layihələrin rəhbərləri arasında layihənin yerinə yetirilməsi barədə lazımi sənədlər toplusu hazırlanmaqla müvafiq müqavilə bağlanılacaqdır.

Elmin İnkişafı Fondu və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası 2-

ci "Şuşa Qrantı" birgə müsabiqəsinin qaliblərini təbrik edir, müsabiqə iştirakçılarına və müstəqil elmi ekspertlərə minnətdarlığını bildirir.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***

***YUNESKO üzrə Azərbaycan Respublikasının***
***Milli Komissiyasının daimi katibliyi***